# Bu forumda da Azərbaycanın logistika və enerji imkanları diqqət mərkəzində oldu

**Davos İqtisadi Forumu dünya liderlərinin və nəhəng maliyyə biznes dairələrinin qatıldığı qlobal tədbirdir. Burada dünyanı maraqlandıran və rahatsız edən mühüm məsələlər geniş müzakirə olunur, vacib qərarlar qəbul edilir.**

Forumda həmçinin dünyanın aparıcı KİV-i bu beynəlxalq tədbir barədə cəmiyyətə maraqlı və yeni informasiya çatdırmaq istəyirlər. Bu zaman onlar müsahiblərinin kimliyinə və onun siyasi çəkisinə xüsusi əhəmiyyət verirlər, çalışırlar ki, müsahibləri vasitəsilə təsir dairələrində olan auditoriyaya sanballı informasiya və ya şərh ötürsünlər. Bu, bütün dünyada KİV-in can atdığı əsas hədəfdir.

"Euronews" telekanalının Davosda "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbir keçirməsi də dövlətimizin başçısının şəxsində yüksək dünyagörüşə və siyasi mədəniyyətə malik bir lider görmək istəməsi olmuşdur. Bu yerdə tədbiri idarə edən moderatorun və kanalın sədri Pedro Varqasın ölkəmizlə bağlı ciddi bilgilər əldə etməsini xüsusi vurğulamaq lazımdır. Pedro Varqas Prezident İlham Əliyevin şəxsi keyfiyyəti ilə yanaşı, gördüyü işləri yüksək dəyərləndirərək demişdir: "Cənab Prezident, Siz fərəh hissi duyan ölkəyə, öz gələcəyinə əmin olan ölkəyə rəhbərlik edirsiniz. Siz də hiss edə bilərsiniz ki, Azərbaycan dünyada öz mövqeyindən əmindir. "Euronews"dan əlavə olaraq, xarici investor kimi biz özəl kapitalımızla Azərbaycana sərmayə yatırmaqdan şadıq və icazə verin, Azərbaycanın hazırkı mövqeyinin uğurunun təməlində dayanan üç sahəni qeyd edim. Birinci yerdə Sizin diplomatik keyfiyyətləriniz, beynəlxalq diplomatiyanız dayanır. Sizin ölkəniz çox mürəkkəb coğrafiyada salınmış bir körpüdür".

"Euronews" telekanalının sədri Azərbaycan Prezidentinin apardığı logistika siyasətini yüksək dəyərləndirərək bildirmişdir ki, Azərbaycan bu sahədə islahatlar sayəsində hava və dəniz limanları, fiber-optika, həmçinin böyük məlumat mərkəzləri baxımından qlobal səviyyədə maraq doğurur. Sədr ölkəmizi logistika baxımından Asiya ilə Avropanı birləşdirən mühüm bir ölkə kimi dəyərləndirmişdir. TRIPP marşrutunun açılmasını qeyd etməsi isə Prezident İlham Əliyevin diplomatik qələbəsinə edilən bir işarə idi.

Dövlətimizin başçısı "Euronews" telekanalına dəvətə görə təşəkkürünü bildirdi və ölkəmiz barədə deyilən xoş sözlərə görə minnətdarlıq etdi. Vurğuladı ki, Azərbaycan üçün uzun illər prioritet sahə enerji sektoruna investisiya qoymaq olub və artıq burada icra edilən böyük layihələr tamamlanıb. İndiki halda ölkə üçün əsas prioritet sahə qeyri-enerji sektorudur.

Məlum olduğu kimi, Azərbaycan dünyada "yaşıl enerji"yə keçid edən ilk ölkələrdəndir. Baxmayaraq ki, ölkəmiz zəngin neft-qaz resurslarına sahibdir, yeni dövrün tələblərinə uyğun olaraq "yaşıl enerji"dəki zəngin potensialından istifadə etməyi planlaşdırır. Dövlətimizin başçısı vurğuladı ki, 2030-cu ilə qədər Azərbaycanda Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə edilməsi gözlənilir.

Prezident həmçinin qarşıdakı illərdə iqtisadi imkanlarımızı genişləndirəcək sahə kimi Qarabağ və Şərqi Zəngəzurda mədənçilik sənayesinin önəmini vurğuladı. Uzun illər bu ərazilər düşmən işğalında olduğu üçün sərvətlərimizdən istifadə edə bilmirdik. Torpaqlarımız işğaldan azad edildikdən sonra yüksək texnologiyalardan istifadə olunaraq burada tədqiqat işləri aparılır. Məqsəd bu mədənlərin potensialının dəyərini müəyyənləşdirməkdir. Bununla bağlı dövlətimizin başçısı qeyd etdi ki, mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici investorlar üçün əsas hədəf olmalıdır. Bütün bunların fonunda ölkənin gələcək inkişafında qeyri-neft-qaz sektorunun rolu danılmazdır: "Bu, faktiki olaraq iqtisadi fəaliyyətin ən yaxşı göstəricisidir. Təəssüf ki, Azərbaycanda neft ehtiyatlarının təbii azalması səbəbindən iqtisadiyyatımız sürətlə inkişaf edə bilmir. Lakin, qeyd etdiyiniz kimi, qeyri-neft sektoru 2 faizdən çox artıb və neft-qazla əlaqəli olmayan sənaye isə ötən il 5,5 faiz artıb. Prezident olaraq mənim üçün bunlar əsas göstəricilərdir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 24 yanvar (№14).- S.6.